Kim cümə günü cənabət qüslu alar, sonra cüməyə gedərsə, sanki (Allah yolunda) dəvə kəsmiş kimi olar

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Kim cümə günü cənabət qüslu alar, sonra cüməyə gedərsə, sanki (Allah yolunda) dəvə kəsmiş kimi olar, kim ikinci saatda gedərsə, inək kəsmiş kimi olar. Kim üçüncü saatda gedərsə, sanki buynuzlu qoç kəsmiş kimi olar. Kim dördüncü saatda gedərsə, sanki bir toyuq kəsmiş kimi olar və hər kim beşinci saatda gedərsə, sanki yumurta sədəqə etmiş kimi olar. İmam xütbə verməyə çıxdıqda isə mələklər zikri dinləmək üçün gələrlər".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) cümə namazına tez getməyin fəziləti haqqında xəbər verir. Tez gəlmək günəş çıxandan imamın gəlişinə qədərki müddətdə başlayır. Bu isə beş saatdır ki, günəşin çıxması ilə imamın daxil olması və xütbə verməsi üçün minbərə qalxana qədər olan zaman arasındakı vaxta görə beş hissəyə bölünür: Birinci: Kim cənabət qüslü kimi kamil qüsl alarsa, sonra cümə məscidinə ilk saatda gedərsə, sanki dəvə sədəqə vermiş olar. İkinci: Hər kim ikinci saatda gedərsə, sanki bir inək sədəqə vermiş kimi olar. Üçüncü: Kim üçüncü saatda gedərsə, sanki buynuzlu bir qoç - erkək qoyun - sədəqə vermiş kimi olar. Dördüncüsü: Hər kim dördüncü saatda gedərsə, sanki bir toyuq sədəqə vermiş kimi olar. Beşinci: Hər kim beşinci saatda gedərsə, sanki yumurta sədəqə vermiş kimi olar. İmam xütbə vermək üçün çıxdıqda; qapılarda əyləşən mələklər bir-birinin ardınca (ilk olaraq) məscidə girənləri yazmağı dayandırar, zikr və xütbəni dinləməyə gələrlər.

http://sunnah.global/hadeeth/az/show/5393